Ədəbiyyat qəzeti

Kamal ABDULLA - 70

5 dekabr 2020-ci il 19

# Kamal Abdullanın İtakası, yaxud İtakada Kamal Abdulla

Ömər XƏYYAM



"Sən çətin tapasan axtardığını, sən axtardığını itirməyiblər"... - mən yaxşı bilirəm, Kamal Abdulla nə demək istəyir, fəqət müəllifi öldürüb, - faydalı intihar müəllifin özünü, faydalı qətl oxucunun müəllifi öldürməyidir! - sözü təkcənəliyimdə xarakterizə edirəm, bir növ, sözdən söz çıxarıram: əslində, bu misrada müəllif özündən danışır, özünü ələ verir.

* * *

Öyrənmirik, xatırlayırıq... - Kamal Abdulla kimi... Mifdə küçələnmək, söz-söz bütövləşmək, mifdə eşələnmək - mifdən özünü toplamaq.

* * *

...mətnin özüylə bütünləşmək, onun içərisində ərimək.

Yazı var, yazı haqda yazılıb, - mən başqa şey deyirəm. Deyirəm, sözün elə məqamı var ki, haman yerdə müəllif özünü öldürür, sözün elə məqamı var, oxucu müəllifi öldürür.

Müəllifin özünü öldürməyi texniki məsələdir, fəqət oxucunun müəllifi öldürməyi - bu mübhəm/mübarək qətl - oxucunun oxuduğunu özüncə - təzədən yazmağıdır. Kamal Abdullanın yazısı ilə mənim oxuduğum Kamal Abdullanın yazısı eyni deyil.

Mən dediyim mətnlərin oxucusu qədər müəllifi var. Məsələn, mənim oxuduğum "Sehrbazlar dərəsini" mən özüm yazmışam. Bu sirli/sehrli məqama ki varmışam, bir tənqidçidən ötrü buralar varılmaz mücərrəddir.

* * *

Ən böyük tənhalıq nə idi? - fikrin, düşüncənin tənhalığı...

Əlbəttə, hər misra, hər cümlə ayrı-ayrılıqda tənhadır.

Zaman və məkanla oyun... Zaman və məkanda oyun...

Kamal Abdullanın mətnləri birdəfəlik şərhə gəlmir, canlıdır, çoxqatlıdır, çoxelementlidir.

* * *

Sözün psixoloji/mental realizəsi, sözün psixologiyası. Kamal Abdullanın mətnlərinə düşmüş, yaxud Vahid mətndən - Vahidin özündən onun yaradıcılığına düşmüş sözlərin enerjisi, psixologiyası mifolojikdir. Belə: Kamal Abdullada sözün psixoloji/ruhi vəziyyəti mifolojidir.

Hə, beləcə iplərin ucunu birləşdirirəm: mətnindəki ruhi/psixoloji halıynan o İtakaya tərəf - özünə dartınır. Mifoloji İtakada küçələnmək... Narahat ruh kimi... - Özünə, canına qayıtmaq...

Burdakı yuxuların davamını görməkdən ötrü xatırlamaq - bir növ, ordakı yuxulara calanmaq...

Yuxu mətnlərinin təhkiyəsi də fərqlidir, üslubu da. Yuxu mətnləri mahiyyətcə sözdən yox, mətndən ibarətdir.

Bu mətnlərin öz nəğməsi, öz səsi, öz rəngi olur...

Mən o mətnləri eşidirəm, görürəm...

...o səsin dalınca düşsən, mübhəm gəncinələrə vararsan, xəlvətdən agah olarsan...

Əvvəl hansıdır, axır hansı... hansı hansının əvvəlidir... Sirli/sehrli halqalar...

* * *

Yetmişinci halqa - yetmişinci qapı... - Mübarəkdir!